# "İdrak" liseyinin uğurları

İnsan öz əməli ilə tanınır. Körpü tikdirmək, bulaq çəkdirmək, yol salmaq, məktəb açmaq babalarımızdan bizə gəlib çatan xeyirxah işlərdir. Belə dünya görmüş insanlar öz xeyirxah əməlləri ilə tarix boyu xatırlanır və unudulmur.

Haqqında söhbət açdığım dəyərli ziyalılarımızdan biri tanınmış pedaqoq, riyaziyyatçı alim, pedaqoji elmlər doktoru, professor, **"İdrak" liseyinin həm Sumqayıtda, həm də Bakıda yaradıcısı və təsisçisi Mönsüm Ədil oğlu Alışovdur.**

1954-cü ildə Azərbaycanın ən səfalı dağ rayonlarından biri olan Qubadlının Çərəli kəndində dünyaya göz açmış Mönsüm 1971-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirmiş və ilk əmək fəaliyyətinə elektrik montyoru kimi başlamışdır. Hələ orta məktəbdə oxuduğu illərdən texniki elmlərə, xüsusilə riyaziyyat fənninə daha da marağı olan Mönsüm Alışov 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) riyaziyyat fakültəsinə qəbul olunmuş, 1976-cı ildə həmin institutu bitirərək Azərbaycan Respublikası Maarif Nazirliyinin əmri ilə Qubadlı rayonuna təyinatla riyaziyyat müəllimi işləməyə göndərilmişdir. Müəllimlik fəaliyyətinə doğulub boya-başa çatdığı Çərəli kənd orta məktəbində riyaziyyat müəllimi kimi işə başlayan Mönsüm müəllim 1980-ci ildən ailə vəziyyəti ilə əlaqədar Sumqayıt şəhərinə köçmüş və Üzvi Sintez İstehsalat Birliyində mühəndis, mühəndis-riyaziyyatçı, Sumqayıt şəhər Maarif Şöbəsinin MTİK-da proqramlaşdırma müəllimi, 12 saylı orta məktəbdə informatika müəllimi işləmişdir.

Elmi yaradıcılıq potensialını reallaşdırmağa can atan Mönsüm Alışov 1988-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspiranturasına daxil olmuş, 1990-cı ildə Azərbaycan ETPE İnstitutunun Təlimin Texniki Vasitələri Şöbəsində elmi işçi kimi fəaliyyət göstərməyə başlamışdır.

Geniş biliyə malik olan insanlar müxtəlif bilik sahələrində yaradıcı surətdə düşünməyə qadir olurlar. Mönsüm Alışov öz tədqiqatçılıq meyilləri sayəsində hələ ali məktəbdə oxuduğu dövrdən mənimsəmənin əhəmiyyətli problemlərinə diqqət yetirmişdir. Tədrislə bağlı müxtəlif problemlərin araşdırılması nəticəsində əldə etdiyi biliklər illərlə üst-üstə yığılaraq zəngin pedaqoji təcrübəyə çevrilmiş və onun pedaqoji yaradıcılığına işıq salmışdır. Elə o zamandan qəlbində belə bir arzu və bu arzunu gerçəkləşdirə biləcəyinə inam yaranmışdı. O, mükəmməl məktəb yaratmaq istəyirdi. Həyatını demək olar ki, bütünlükdə təhsilə, gənc nəslin təlim-tərbiyəsinə sərf etmiş bu maarifpərvər insan "məktəb" anlayışını sanki öz həyat amalına çevirmiş, Azərbaycan təhsilinin aktual problemlərini həll edə biləcək pedaqoqları əhatəsinə yığaraq biliklərini zənginləşdirmiş, karyerasının perspektivini sözün həqiqi mənasında dəyərləndirməyə çalışmışdır.

1992-ci ildə Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu gənc elmi işçi Mönsüm Alışovun təşəbbüsü ilə Sumqayıtda üçillik Pedaqoji Qızlar Seminariyasının yaradılması haqqında onun irəli sürdüyü təklifi müzakirə edərək bu qərara gəldi ki, məktəbəqədər yaşlı uşaqların və ibtidai sinif şagirdlərinin psixoloji və fərdi xüsusiyyətlərini, təhsil sisteminin milli ənənələr, türk dünyası və islami dəyərlər üzərində qurulması zərurətini nəzərə alaraq Qızlar Seminariyası təsis edildi. Və nəhayət zəngin pedaqoji biliklər, keşməkeşli həyat və iş təcrübəsi, ən əsası isə zamanı qabaqlamaq istəyi Mönsüm Alışovu öncüllər sırasına çıxardı. O, Sumqayıtda ilk özəl təhsil müəssisəsini açdı. 1993-cü ildə təsis edilmiş ilk özəl orta ixtisas təhsil müəssisəsi hesab olunan Sumqayıt Pedaqoji Seminariyası sonradan fakültələrinin sayını artıraraq Sumqayıt Özəl Orta İxtisas Kolleci statusu aldı. Bu təhsil ocağı Respublika Təhsil Nazirliyi Dövlət Ali Ekspert Komissiyasının 28 may 1993-cü il tarixli qərarı ilə orta ixtisas təhsili müəssisəsi statusu ilə qeydə alınmış və onun nizamnaməsi təsdiq olunmuşdur. İlk olaraq seminariyaya məktəbəqədər tərbiyəçi və ibtidai sinif müəllimi ixtisasları üzrə mütəxəssis hazırlamaq hüququ verilmişdir. Daha sonra isə fənlərin sayı artırılmışdır.

Böyük zəhmət bahasına yaradılmış bu təhsil ocağı gənc alimin təcrübə meydanına çevrilir və Mönsüm Alışov ömrünün məhz bu illərində öz elmi yaradıcılığında uğurlar qazanır. Sevimli müəllimi və elmi rəhbəri Zahid Qaralovun mənəvi dəstəyi ilə 2001-ci ildə "Kompüter texnikasının köməyi ilə şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsinə yüksəlir. Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun təhsilin idarə edilməsi və innovasiyalar kafedrasının professoru olan M.Alışovun respublikamızın məktəblərində "informatika" fənninin tədrisinin yaxşılaşdırılmasına və eləcə də kompüterin təlim prosesinə tətbiqinə dair gənc müəllimlərə kömək məqsədilə müxtəlif illərdə 60-dan çox elmi-publisistik məqalələri mətbuatda çap olunmuşdur.

M.Alışov 8 monoqrafiyanın, bir çox dərs və metodik vəsaitlərin müəllifidir. Mönsüm müəllim ümumtəhsil məktəblərində kompüter texnikasından, fizika və riyaziyyat fənlərinin tədrisi zamanı "problemli-modullu təlim" texnologiyasından istifadə etməklə şagirdlərdə idrak fəaliyyətinin yüksəldilməsi metodikasını vermişdir. "Problemli-modullu təlim" metoduna "problemli təlim", "modullu təlim" və "sıxlaşdırma" nəzəriyyəsinin qarşılıqlı əlaqəliliyi şəraitində həmin metodların inteqrasiyası nəzəriyyəsini əsaslandırmışdır.

2008-ci ildə Sumqayıt Özəl Orta İxtisas Kollecinin təhsil islahatlarına uyğun olaraq zəngin maddi-texniki bazası əsasında "İdrak" liseyi təsis edilmişdir. "Təhsilin humanistləşdirilməsi yolu ilə yeni pedaqoji təfəkkürün inkişafı" amalını əsas şüar sayan liseydə yüksək hazırlıqlı müəllimlər çalışırlar.

Mönsüm müəllimin düzgün kadr seçimi və elmi yaradıcılıq qabiliyyəti liseyin dinamik inkişafına yardım edir. Bunun nəticəsidir ki, kollektiv uğurlarını ilbəil artırır. Burada işləyən pedaqoqlar Sumqayıtın ən nüfuzlu, istedadlı və peşəkar müəllimlərindəndir. Liseydə Azərbaycan dili, riyaziyyat, fizika, kimya, biologiya, ingilis dili, rus dili, tarix, coğrafiya, nitq mədəniyyəti, məntiq fənlərinin tədris keyfiyyəti hər yarım ildə öyrənilərək üstünlüklər və problemlər araşdırılır, müəllimlərə göstəriş və məsləhətlər verilir. Bununla da tədrisin faydalı iş əmsalı yaxşılaşdırılır. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsi sayəsində şagirdlərin biliklərə marağı daha da artır, onların dünyagörüşləri durmadan genişlənir. Məzunların ali məktəblərə qəbulu hər bir təhsil ocağının başlıca uğur göstəricisi sayılır. Bu baxımdan da "İdrak" liseyi əsl nümunə nümayiş etdirir. Artıq dörd ildir ki, liseyi bitirmiş məzunlar yüksək ballarla Azərbaycanın, eləcə də dünyanın ən qabaqcıl ali təhsil müəssisələrində təhsil alırlar.

Bir çoxlarının Mönsüm müəllimin şah əsəri hesab etdiyi "İdrak" liseyi yeni bir uğura imza atdı. Lisey qurduğu iş sistemi və dinamik inkişafa malik olan mexanizmi sayəsində özünə olan tələbatı artıraraq Sumqayıt şəhərinin sərhədlərini aşdı. Son illər bölgələrdən və əsasən də Bakı şəhərindən müraciət edən valideynlərin çoxsaylı xahişini nəzərə alaraq müdrik təsisçi 2015-ci il sentyabrın 15-də liseyin bir filialını da paytaxtımızda istifadəyə verdi. Bölgələrdən olan müraciətlərsə liseydə yatılı sisteminin yaradılması zərurətini yaratdı.

—Bu qədər uğurlara necə nail oldunuz? — sualını Mönsüm müəllim belə cavablandırdı:

—"İdrak"ın yarandığı gündən davamlı olaraq keçirilən mədəni-kütləvi tədbirlərdə şagirdlərə vətənpərvərlik hissi aşılanır, düşmənə qarşı mübarizənin məhz yüksək savada yiyələnməkdən başlanması fikri təbliğ olunur. İlk növbədə ciddi nizam-intizama riayət olunur. Hər il məktəbdaxili olimpiadalar keçirilir. Açıq dərslər, ayrı-ayrı fənn aylıqlarına həsr olunmuş "Breyn rinq" bilik yarışmaları şagirdlərin potensiallarının açılmasına xidmət göstərir. Yarışmalar həmçinin gələcək tələbəlik dövründə keçiriləcək müvafiq tədbirlərdə iştiraka stimul verir, vərdiş yaradır. Bu kimi tədbirlərdə uşaqlar biliklərini nümayiş etdirməklə bərabər, yeni məlumatlar da əldə edir və dünyagörüşlərini artırırlar.



"İdrak" liseyində təhsilin keyfiyyətini artıran amillərdən biri də vaxtın düzgün bölüşdürülməsidir. Günün ilk yarısında Təhsil Nazirliyinin proqramı əsasında dərs alan şagirdlər günortadan sonra öz maraq və bacarıqlarına uyğun əlavə məşğələlərdən yararlanırlar. Buraya həmçinin şahmat, rəssamlıq, voleybol, futbol və rəqs dərnəkləri aiddir.

Tətillərdə şagirdlərin ölkəmizin rayonlarına, tarixi yerlərinə ekskursiyalar təşkil olunur. İyul ayında liseydə "Yay məktəbi" fəaliyyət göstərir. Uşaqlar burada mütəxəssislər tərəfindən tərtib edilmiş plana əsasən əyləncəli tədbirlərə, təlimlərə cəlb olunur, gəzintilərə aparılır.

Gün ərzində 3 dəfə yeməklə təmin olunan şagirdlər liseyin üzgüçülük hovuzundan da səmərəli istifadə edirlər. Hərtərəfli və geniş maraq dairəsinə malik olan pedaqoq-alim 2008-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüşdür. Mönsüm Alışov 2013-cü ildə uzun illərini həsr etdiyi "Həndəsənin hazırlıq kursunun məzmunu, sistemi və təlimi metodikasının təkmilləşdirilməsi" mövzusunda doktorluq dissertasiyasını da uğurla müdafiə edərək pedaqoji elmlər doktoru adını almışdır.

Bu elmi tədqiqat işi ilk dəfə olaraq həndəsənin hazırlıq kursu (VI siniflər) məzmununun sisteminə, müasir inkişafetdirici təlim şəraitində fəal metodların informasiya-kommunikasiya texnologiyalarının kompleks şəkildə tətbiq edilməsinə dair hazırlanmış yeni metodik sistemdir.

Professor M.Ə.Alışov hazırda Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun tədris işləri üzrə prorektorudur.

Biz Mönsüm müəllimə elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayırıq.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**